# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏ ONLARIN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ

DOİ: 10.71447/2413-7235-2026-1-92

**Zəhra A. Rzazadə**
*"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti"-Mütəxəssis*
*Magistrant*
*E-mail: rzaevazehra@gmail.com*
*ORCID ID: 0009-0004-6172-5256*

**Xülasə**
Bu məqalədə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların mahiyyəti və onların ölkənin davamlı inkişafına təsiri təhlil olunur. Qeyd edilir ki, məqsədyönlü və strateji xarakter daşıyan bu islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin edilmiş, inklüziv və dayanıqlı iqtisadi artım üçün əlverişli şərait formalaşmışdır. Xüsusilə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və özəl investisiyaların təşviqi istiqamətində həyata keçirilən tədbirlər neft-qaz asılılığının azaldılmasına mühüm töhfə vermişdir.Məqalədə Azərbaycanın müstəqillik dövründə keçdiyi iqtisadi inkişaf mərhələləri müqayisəli şəkildə təhlil edilir və göstərilir ki, 1991–1995-ci illərdəki tənəzzül dövründən sonra 1996-cı ildən etibarən davamlı inkişaf mərhələsi başlamışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan iqtisadi strategiya nəticəsində ölkədə bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya uğurla həyata keçirilmiş,nəticədə "Azərbaycan modeli" kimi xarakterizə olunan inkişaf konsepsiyası formalaşmışdır.Eyni zamanda sənayeləşmə siyasəti çərçivəsində sənaye parklarının və texnoparkların yaradılması, innovativ texnologiyaların tətbiqi, rəqabət qabiliyyətli məhsul istehsalının genişləndirilməsi və qeyri-neft ixracının artırılması kimi istiqamətlər iqtisadiyyatın modernləşməsində mühüm rol oynayır. Aparılan islahatların sosial təsirləri də vurğulanaraq yoxsulluğun azaldılması, səhiyyə və təhsil sistemlərinin inkişafı, əhalinin rifahının yüksəldilməsi kimi nəticələr ön plana çıxarılır. Aparılan sosial-iqtisadi islahatların sosial nəticələri də xüsusi diqqət mərkəzində saxlanılır. Belə ki, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması, məşğulluğun artırılması, əhalinin sosial rifahının yüksəldilməsi, səhiyyə və təhsil sistemlərində keyfiyyət dəyişikliklərinin baş verməsi bu siyasətin mühüm nailiyyətləri kimi qiymətləndirilir. Eyni zamanda sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası və insan kapitalının inkişafına yönəlmiş tədbirlər uzunmüddətli dayanıqlı inkişafın təmin edilməsində əsas amillərdən biri kimi çıxış edir.Bu isə gələcəkdə daha davamlı və inklüziv inkişaf üçün möhkəm zəmin formalaşdırır.
***Açar sözlər:*** sosial-iqtisadi islahatlar, iqtisadi inkişaf, dayanıqlı inkişaf, iqtisadiyyatın şaxələndirilməsi, investisiyalar.

# ВНЕДРЕНИЕ ЭКОНОМИЧЕСКИХ РЕФОРМ В АЗЕРБАЙДЖАНЕ И ИХ ВЛИЯНИЕ НА РАЗВИТИЕ ЭКОНОМИКИ СТРАНЫ

**Захра А. Рзазаде**
*Открытое Акционерное Общество "Азеришиг" -Специалист*
*Магистрант*
*Е-маил: rzaevazehra@gmail.com*
*ОРСИД: 0009-0004-6172-5256*

**Резюме**
В данной статье анализируется сущность социально-экономических реформ, проведенных в Азербайджане, и их влияние на устойчивое развитие страны. Отмечается, что в результате этих целенаправленных и стратегических реформ в стране была обеспечена макроэкономическая стабильность и сформированы благоприятные условия для инклюзивного и устойчивого экономического роста. В частности, меры по диверсификации экономики, развитию не нефтяного сектора и привлечению частных инвестиций внесли значительный вклад в снижение зависимости от нефти и газа. В статье в сравнительном порядке анализируются этапы экономического развития Азербайджана за период его независимости и показывается, что после периода спада 1991–1995 годов с 1996 года начался этап устойчивого развития. В результате экономической стратегии, разработанной под руководством национального лидера Гейдара Алиева, в стране был успешно осуществлен переход к рыночной экономике и интеграция в мировую экономику, и в результате сформировалась концепция развития, характеризующаяся как «азербайджанская модель». В то же время, в рамках политики индустриализации важную роль в модернизации экономики играют такие направления, как создание индустриальных и технопарков, внедрение инновационных технологий, расширение конкурентоспособного производства продукции и увеличение несырьевого экспорта. Особое внимание уделяется также социальным последствиям проведенных реформ, на первый план выходят такие результаты, как сокращение бедности, развитие систем здравоохранения и образования, а также повышение благосостояния населения. Социальные результаты проведенных социально-экономических реформ также находятся в центре внимания. Так, к важным достижениям этой политики относятся значительное снижение уровня бедности, увеличение занятости, повышение социального благосостояния населения и качественные изменения в системах здравоохранения и образования. Одновременно с этим, одним из ключевых факторов обеспечения долгосрочного устойчивого развития является совершенствование механизмов социальной защиты, реализация государственных программ социально-экономического развития регионов и меры, направленные на развитие человеческого капитала. Это формирует прочную основу для более устойчивого и инклюзивного развития в будущем.
***Ключевые слова***: *социально-экономические реформы, экономическое развитие, устойчивое развитие, диверсификация экономики, инвестиции.*

# IMPLEMENTATION OF ECONOMIC REFORMS IN AZERBAIJAN AND THEIR IMPACT ON THE DEVELOPMENT OF THE COUNTRY'S ECONOMY

**Zahra A. Rzazadeh**
*"Azerishig" Open Joint Stock Company – Specialist*
*Master's student*
*E-mail: rzaevazehra@gmail.com*
*ORCID ID: 0009-0004-6172-5256*

**Abstract**

This article analyzes the essence of the socio-economic reforms implemented in Azerbaijan and their impact on the sustainable development of the country. It is noted that as a result of these targeted and strategic reforms, macroeconomic stability has been ensured in the country and favorable conditions have been formed for inclusive and sustainable economic growth. In particular, measures taken to diversify the economy, develop the non-oil sector and promote private investment have made a significant contribution to reducing oil and gas dependence. The article analyzes the stages of economic development that Azerbaijan has undergone during its independence in a comparative manner and shows that after the period of decline in 1991–1995, a stage of sustainable development has begun since 1996. As a result of the economic strategy established under the leadership of the national leader Heydar Aliyev, the transition to a market economy and integration into the world economy were successfully implemented in the country, and as a result, a development concept characterized as the "Azerbaijani model" was formed. At the same time, within the framework of the industrialization policy, directions such as the creation of industrial parks and technoparks, the application of innovative technologies, the expansion of competitive product production and the increase in non-oil exports play an important role in the modernization of the economy. The social impacts of the reforms carried out are also emphasized, and results such as poverty reduction, development of health and education systems, and improvement of the welfare of the population are brought to the fore. The social results of the socio-economic reforms carried out are also kept in the center of special attention. Thus, a significant reduction in the poverty level, an increase in employment, an increase in the social welfare of the population, and qualitative changes in the health and education systems are assessed as important achievements of this policy. At the same time, improving social protection mechanisms, implementing state programs for the socio-economic development of regions, and measures aimed at developing human capital act as one of the key factors in ensuring long-term sustainable development. This forms a solid foundation for more sustainable and inclusive development in the future.

***Keywords:*** *socio-economic reforms, economic development, sustainable development, economic diversification, investments.*

## GİRİŞ

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar məqsədyönlü və strateji xarakter daşıyır. Genişmiqyaslı yenilənmələr nəticəsində respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artım təmin edilir, iqtisadiyyatın şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradılır. Bütün bunlarla yanaşı, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən ardıcıl tədbirlər nəticəsində iqtisadiyyatın neft-qaz amilindən asılılığı getdikcə azalır.Bu isə respublikamızda qeyri-neft sahələrinin inkişafına müsbət təsir göstərir, səhiyyənin və təhsilin inkişafını,yoxsulluğun azaldılmasını, torpaq ekosisteminin mühafizəsini şərtləndirir.Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, bu gün ölkədə yoxsulluğun azaldılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal çətinliklərinin, o cümlədən içməli su probleminin səmərəli həlli, ölkənin enerji təhlükəsizliyinin təmin olunması kimi məsələlər dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən də etiraf olunur (Bağırov,2022). Dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1993-cü ildən başlayaraq iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə bölmək olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü. Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir model – Azərbaycan modeli yaranmışdır. Azərbaycanın yeni inkişaf mərhələsinə uyğun olaraq sənayenin təşkilinin ən müasir formalarının tətbiqinin genişləndirilməsi də sənayeləşmə siyasətinin prioritetlərindəndir. Bu baxımdan Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanda müasir sənaye komplekslərinin və texnoparkların, o cümlədən Sumqayıt kimya sənaye və Balaxanı sənaye parklarının yaradılması qeyri-neft sektorunun və xüsusilə də qeyri-neft sənayesinin inkişafını sürətləndirəcək, yerli və xarici investisiyaları stimullaşdıracaq, müasir texnoloji sahələrin inkişafına, yeni rəqabət qabiliyyətli məhsul istehsalına təkan verəcək və iqtisadiyyatın modernləşməsinə və innovativ iqtisadiyyatın formalaşmasına, qeyri-neft ixracının artırılmasına öz müsbət töhfəsini verəcəkdir (Həsənov,2014).

### Heydər Əliyevin Rəhbərliyi ilə Azərbaycanda İqtisadi İslahatlar.

1993-cü ildə müstəqilliyini yeni bərpa etmiş ölkə düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Ölkədə yaranmış xaos, hərc-mərclik mәticəsində xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Müstəqil Azərbaycan dövlətinin xaosdan çıxarılması, günü-gündən möhkəmləndirilməsi, inkişaf edirilməsi, iqtisadiyyatının gücləndirilməsi istiqamətində vacib və təxirəsalınmaz addımların atılması lazım idi. Bu isə uzun illər Azərbaycan üçün çalışan, onu qabaqcıl ölkələrdən birinə çevrilməsi üçün bütün sahələrdə geniş islahatlar aparan bir şəxsiyyətlə-Heydər Əliyevlə mümkün olardı.Hələ 1969-cu ildən Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə ölkənin iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə start verilib. Məhz iqtisadiyyatın gücləndirilməsi istiqamətində atılan addımlar bu gün Azərbaycanın dünya ölkələri sırasında yer almasına,

dünyada vacib ölkələrdən birinə çevrilməsinə səbəb olub. Dahi siyasətçinin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılıb, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olunub, yeni sənaye sahələri yaradılıb, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırılıb, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqeyə yiyələnib, istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşıb. 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sənaye sahələri yaranıb. Sənayenin inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi nəticəsində 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılıb. Həmin vaxtlar Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Həmçinin 1970-ci ildən Azərbaycanda neft sənayesinin inkişaf etdirilməsi ilə "qara qızıl" Azərbaycan xalqına xidmət edən sahəyə çevrilməsinin əsası qoyulub.Həmin dövrdə ölkə iqtisadiyyatının inkişaf tarixinə nəzər salanda məhz Heydər Əliyevin sətləri ilə 1975-ci ildə Bakı Məişət Kondisionerləri zavodunun tikilərək istifadəyə verilməsini xüsusi qeyd etmək lazımdır. SSRİ-də yeganə olan bu zavod çox az vaxt zamanında tikilmiş və tezliklə öz fəaliyyəti ilə ölkə iqtisadiyyatında əhəmiyyətli yer tutmağa başlamışdır. Zavod fəaliyyətə başlayandan sonra dəfələrlə burada olan Ulu öndər hər zaman bu müəssisə barəsində xoş sözlər demişdir.Məhz Ulu öndər Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi-siyasət nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilib (Kərimov,2023). 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi yaradıldı. SSRİ Neft Sənayesi Nazirliyi Azərbaycan neftçilərinin dəniz şəraitində iş təcrübəsini nəzərə alaraq, İranla sərhəddən Xəzərin şimalına kimi, dənizin bütün sektorlarında geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını Azərbaycan neftçilərinə həvalə etdi. Azərbaycan neftçiləri Xəzərin bütün sektorlarında 1991-ci ilədək işlədilər. Dünya təcrübəsinə əsaslanaraq Xəzəri sektorlara böldülər. Xəzəryanı dövlətlərin hərəsinin öz sektorları oldu. Bu bölgü Xəzərin ümumi sahəsinin 21.2%-i Azərbaycan, 30.7%-i Qazaxıstan, 18.4%-i Türkmənistan, 17.4%-i Rusiya, 12.3%-i İrana düşdü. 22 il ərzində geofiziki işlər nəticəsində Xəzər dənizində 350-dən artıq geoloji struktur aşkar olundu. Azərbaycan geofizikləri Xəzərin Türkmənistan sektorunda 70 min km-dən çox seysmik profillər işləmiş, 32 struktur aşkar etmiş, 16 strukturu dərin axtarış qazmasına hazırlamışlar. Xəzər dənizinin Türkmənistan sektorunda 6 yataq - LAM bankası (indiki Ceytun, 1972), Livanov-şərq bankası (indiki Məhtimqulu, 1973), Çələkənyanı günbəz (indiki Çələkən günbəz, 1976), Barinov adına (indiki Diyarbəkir, 1976), Qubkin bankası (indiki Qaragöl-dəniz, 1990) və Kəpəz (indiki Dostluq, 2021) yataqlarını açmışlar. Xəzər dənizinin Qazaxıstan sektorunda "Kaspmorneftegeofizrazvedka" tresti tərəfindən 1974-1990-cı illərdə ÜDN üsulu ilə seysmik tədqiqatlar aparılmışdır. Bu dövrdə 80-dən çox perspektiv struktur müəyyən edilib. Həmin strukturların 10-u dərin qazma işlərinə hazırlanıb. Geofiziki kəşfiyyat üsulları ilə müəyyən edilmiş perspektiv strukturlardan dörd neft-qaz yatağı aşkar edilmişdir: Kaşaqan (Koroğlu), Skalista, Rakuşeçnaya more və Kulali. 1982-1987-ci illərdə Moskvada Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışarkən də Heydər Əliyev Azərbaycan neftçilərinin işini izləyir, respublikada neft sənayesinin xüsusi rolunu həmişə qeyd edirdi. Çünki O, Azərbaycanda sənayenin bu sahəsinin inkişafı üçün illər uzunu böyük əmək sərf etmişdir. Əslində neft sənayesinin inkişafı üçün onun gördüyü işlər gələcəyə hesablanmışdı. Heydər Əliyev Azərbaycanın neft sənayesini və bütövlükdə respublikanı ikinci dəfə ağır fəlakətdən 90cı illərdə qurtardı. 1991-ci ilin sonunda Sovet İttifaqı dağıldı. Azərbaycan müstəqillik əldə etdi.Nəhayət,

1994-cü il sentyabrın 20-də "Azəri-Çıraq-Günəşli" (dərinsulu hissə) yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə sonradan "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Bu, Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin neft sahəsində birinci şah əsəri oldu. Yeri gəlmişkən deyim ki, Prezident Heydər Əliyevin Fərmanı ilə sentyabrın 20-si 2001-ci ildən ölkəmizdə Neftçilər Günü kimi qeyd olunur. "Əsrin müqaviləsi"nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu. Siyasi cəhətdən müqavilənin əhəmiyyəti o oldu ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı. Müqavilənin iqtisadi əhəmiyyəti isə odur ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Beləliklə, neft hasilatı 5,6 dəfə artdı. Hazırda respublikada hasil edilən neftin və qazın əsas hissəsi "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları hesabına əldə edilir. Azəri, Çıraq, Günəşli yatağının dərin sulu hissəsindən 136 quyu ilə orta gündəlik 53 min ton neft və 37 milyon kubmetr qaz hasil edilir. İşlənmənin əvvəlindən "Azəri-Çıraq-Günəşli" yataqlarından 571 milyon ton neft və 205 milyard kubmetr qaz hasil edilmişdir. Artıq 24-cü ildir ki, "Azəri-Çıraq-Günəşli" yataqları layihəsinin iştirakçıları "mənfəət nefti"ndən gəlir əldə edirlər. 1999-cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf olunurdusa, həmin ilin dekabrından Azərbaycanın "mənfəət nefti" xarici bazarlara çıxarılır. 2023-cü il aprelin 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 338 milyon ton AÇG "mənfəət nefti" satılıb ki, bu da layihə üzrə ümumi çıxarılan 571 milyon ton neftin 59 faizini təşkil edir.Azərbaycan nefti Avropaya və dünya bazarlarına 1997-ci ildən "Şimal istiqaməti" (Bakı-Novorossiysk), 1999-cu ildən "Qərb marşrutu" (Bakı-Supsa) ilə çıxarılırdısa, artıq 2006-cı ilin mayından Heydər Əliyev adına unikal Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə də çıxarılmağa başladı. Bu boru kəməri Heydər Əliyevin 2-ci şah əsəridir. Mən bir məsələni də qeyd etmək istəyirəm: vaxtilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri layihəsinin də əleyhdarları vardı. Amma indi baxın: 2023-cü il aprel ayının 1-dək dünya bazarlarına, 650 milyon ton Azərbaycan nefti çıxarılıb ki, bunun da 478 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilib. "Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi isə Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıtdırdı (Yusifzadə,2023,s.2-3). Xalqımızın və dövlətimizin mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi üçün strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsi əsas götürüldü və geridə qalan illər sübut etdi ki, bu variant həqiqətən Azərbaycanın maraqlarını tam təmin edir.Ümummilli Liderimizin qətiyyəti və cəsarətli siyasəti sayəsində 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyulub. Təxminən, üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilib və boru xəttinə ilk neft vurulub. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilib. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınıb. Bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdə davam edir (Kəngərli,2017). Heydər Əliyev həm də, Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və kifayət qədər

əhəmiyyətli layihə hesab olunan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoyub. Eyni zamanda,1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə dair sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Ulu öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərib, ölkənin gələcək iqtisadi yüksəlişinin məhz özəl sektorla bağlı olduğunu vurğulayıb. O, həmişə deyirdi ki, sahibkarlığın inkişafı, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması xalqımızın yeganə strateji yoludur. Bu sahədə islahatlar da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə 1993-cü ildə “Azərbaycanda sahibkarlığın inkişafı” Dövlət Proqramını təsdiqlənib. Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım göstərən strukturlar formalaşıb. Sahibkarların vergi yükünün azaldılması istiqamətində tədbirlər görülüb, mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salınıb, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiqinə başlanılıb. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradılıb və bu sahədə müvafiq dövlət proqramları təsdiqlənib. Müstəqil Azərbaycanı gücləndirmək və dünyaya inteqrasiya etmək üçün nəyi etməli olduğun Heydər Əliyev çox gözəl bilirdi. Ona görə də, o, öncə qanunvericilikdə islahatlar aparmaqla iqtisadi-sosial sferada görüləcək işlərin önünü açmağa başlayıb. Məsələn, “Aqrar islahatların əsasları haqqında”, “Sovxoz və kolxozların islahatı haqqında”, “Torpaq islahatı haqqında” qanunların, “Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsi”, “Özəlləşdirmənin ikinci Dövlət Proqramı”nın qəbul edilməsi aqrar islahatların uğurla həyata keçirilməsinə hüquqi əsas yaradıb. O illərdə islahatların həyata keçirilməsi üçün 14 qanun, Prezidentin 13 fərman və sərəncamı, Nazirlər Kabinetinin 20 qərar və sərəncamı qəbul edilib. Ümummilli liderin xalqımız üçün ən böyük xidmətlərindən biri də neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaratmasıdır. O, 1999-cu il dekabrın 29-da “Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” Fərman imzalayıb.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar nəticəsində 1995-2003-cü illər ərzində ümumdaxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artıb, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirilib. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində investisiyanın qoyulması təmin olunub (Sezer,2017).

**İlham Əliyevin Rəhbərliyi ilə İqtisadiyyatın Şaxələndirilməsi və Dayanıqlı İnkişaf.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkə iqtisadiyyatı 2008-ci ildən etibarən qlobal miqyasda baş verən maliyyə böhranına hazırlıqlı şəkildə daxil olmuşdur. Respublikada formalaşdırılan rasional makroiqtisadi idarəetmə sistemi və toplanmış valyuta ehtiyatları maliyyə sabitliyinin qorunmasında mühüm rol oynamış, risklərin qabaqlayıcı mexanizmlərlə tənzimlənməsinə şərait yaratmışdır. Nəticə etibarilə, Azərbaycanın strateji valyuta ehtiyatları 2003-cü illə müqayisədə 26,2 dəfə artaraq cari ilin sentyabr ayının sonuna 42 milyard ABŞ dollarına çatmışdır.2004–2016-cı illər ərzində ümumi daxili məhsul real ifadədə 3,2 dəfə artmış, qeyri-neft sektoru isə 2,7 dəfə genişlənmişdir. Eyni dövrdə sənaye istehsalı 3,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,6 dəfə, tikinti sektoru 3,4 dəfə, ticarət dövriyyəsi 3,9 dəfə, turizm sektoru 14,2 dəfə, nəqliyyat sahəsi 2,6 dəfə, rabitə isə 10,6 dəfə artım nümayiş etdirmişdir (Bayramov,2017). İqtisadiyyatın şaxələndirilməsi və regional inkişafın təmin olunması məqsədilə 2004–2013-cü illəri əhatə edən iki mərhələli dövlət proqramı həyata keçirilmişdir. Bu

proqramların icrası nəticəsində 10 il ərzində ÜDM 3,2 dəfə, qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmışdır. Eyni zamanda investisiyalar və əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı isə 5,5 dəfə yüksəlmişdir.Görülən tədbirlər nəticəsində ölkədə 1,2 milyondan artıq yeni iş yeri yaradılmış, onların 900 mini daimi olmuşdur. Bundan əlavə, 55,6 min yeni müəssisə fəaliyyətə başlamış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə qədər azalmışdır. Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların həcmi 130 milyard ABŞ dollarını ötərək, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft ixracı isə 4,5 dəfə artmışdır.Sahibkarlığın inkişafı istiqamətində də mühüm addımlar atılmış, 19,4 min sahibkarlıq subyektinə 1,2 milyard manatdan artıq güzəştli kredit verilmiş və bu, 113 min yeni iş yerinin açılmasına imkan yaratmışdır. Dövlət maliyyə göstəricilərində də əhəmiyyətli artım qeydə alınmışdır: büdcə gəlirləri 14,2 dəfə, vergi daxilolmaları 7,3 dəfə, büdcə xərcləri 13,9 dəfə, əmanətlər 24 dəfə, bank aktivləri isə 18 dəfədən çox artmışdır. Hazırda ÜDM-də özəl sektorun payı 83 faiz, məşğulluqda isə 73,9 faiz təşkil edir.Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, Doing Business hesabatına əsasən, ölkə 2009-cu ildə “ən islahatçı dövlət” kimi tanınmışdır.2015-ci ildən etibarən ölkə iqtisadiyyatı yeni keyfiyyət mərhələsinə qədəm qoymuş, qlobal iqtisadi çağırışlara uyğun olaraq islahatların yeni istiqamətləri müəyyən edilmişdir. 2016-cı ildən başlayaraq biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi, qeyri-neft ixracının artırılması və idxalın əvəzlənməsi məqsədilə sistemli və dərin iqtisadi islahatlar həyata keçirilmişdir. Xüsusilə, 4 avqust 2016-cı il tarixli sərəncam çərçivəsində vergi sahəsində islahatların əsas istiqamətləri müəyyən edilmiş, Azərbaycan Respublikasının Vergi Məcəlləsi üzrə 56 maddəni əhatə edən 201 dəyişiklik edilmişdir.Eyni zamanda, maliyyə əməliyyatlarının şəffaflığını artırmaq məqsədilə Nağdsız hesablaşmalar haqqında qanun qəbul olunmuşdur. Bununla yanaşı, 2017-ci ildən tətbiq edilən vergi borclarının tənzimlənməsi mexanizmi sahibkarlığın inkişafına əlavə stimul vermiş, vergi yükünün optimallaşdırılmasına şərait yaratmışdır.Son 20 ildə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 4 dəfədən çox genişlənmiş, qeyri-neft sektorunda ÜDM-in nominal həcmi 16 dəfə artmış, dövlət büdcəsinin gəlirləri 30 dəfəyə yaxın yüksəlmiş, Dövlət Neft Fondunun valyuta ehtiyatları isə 67 dəfədən çox artmışdır. Xarici borcun ÜDM-də payı isə 2003-cü ildəki 21,6 faizdən 9,5 faizə enmişdir ki, bu da ölkəni ən az borclanan dövlətlər sırasına daxil edir.Bu iqtisadi güc, eyni zamanda, Azərbaycanın hərbi-siyasi uğurlarının əsasını təşkil etmişdir. Xüsusilə İkinci Qarabağ müharibəsi zamanı ölkə öz ərazi bütövlüyünü təmin etmiş, milli həmrəyliyə əsaslanan “dəmir yumruq” siyasəti ilə qələbə qazanmışdır.İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri qısa müddət ərzində sürətli bərpa və inkişaf mərhələsinə daxil olmuşdur. Bu ərazilərdə genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, müasir yol şəbəkələri qurulur, enerji və su təminatı sistemləri yenidən yaradılır, “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyaları tətbiq olunur. Artıq Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan Beynəlxalq Hava Limanı və Laçın Beynəlxalq Hava Limanı inşa edilərək istifadəyə verilmişdir (Yusifov,2023). İşğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi həyatın bərpası prosesində özəl sektorun rolu xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, dövlət tərəfindən həmin bölgələrə həm yerli, həm də xarici investorların cəlb edilməsi üçün əlverişli biznes mühitinin formalaşdırılması prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir.Bu məqsədlə İlham Əliyev tərəfindən 16 noyabr 2022-ci il tarixində təsdiq edilən Böyük Qayıdışa dair I Dövlət Proqramı mühüm strateji sənəd kimi çıxış edir. Sözügedən proqramın əsas hədəflərindən biri azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin yenidən qurulması, investisiya axınının artırılması və bunun nəticəsində rəqabətqabiliyyətli sahibkarlıq mühitinin təşəkkül tapmasıdır.Eyni zamanda, proqram çərçivəsində biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və iqtisadi aktivliyin

genişləndirilməsi əsas məqsədlər sırasına daxildir. Bu yanaşma regionda davamlı inkişafın təmin olunmasına və iqtisadi potensialın səmərəli reallaşdırılmasına xidmət edir.

***Şəkil 1.****İşğaldan azad olunmuş ərazilərin bərpasına dövlət büdcəsindən ayırmalar (milyadr manatla).*




***Mənbə:*** *https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-ve-serqi-zengezurda-sahibkarliq-muhiti-68*

Qarabağ və Şərqi Zəngəzur regionunda həyata keçirilən bərpa və yenidənqurma işlərinin maliyyə təminatı illər üzrə artan dinamika nümayiş etdirir. Belə ki, 2021-ci ildə bu məqsədlər üçün 2,2 milyard manat, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılmış, 2023-cü ilin dövlət büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ayrılan vəsait əvvəlki illə müqayisədə 13 faiz artırılaraq 3 milyard manata çatdırılmışdır. Bu göstəricilər dövlətin regionun sürətli bərpası və dayanıqlı inkişafının təmin olunmasına verdiyi prioritet əhəmiyyəti aydın şəkildə əks etdirir. İşğaldan azad olunmuş ərazilərdə nəqliyyat infrastrukturunun bərpası sürətlə davam etdirilərək, həmin bölgələrin ölkənin digər şəhər və rayonları ilə inteqrasiyası təmin olunur. Xüsusilə region üçün strateji əhəmiyyət daşıyan Tərtər–Çaylı–Suqovuşan–Talış və Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu (Zəfər yolu), eləcə də Laçın şəhərinə daxil olmadan çəkilən alternativ yolun tikintisi artıq tamamlanmışdır. Digər avtomobil yollarının isə 2026-cı ilin sonunadək inşa və bərpasının yekunlaşdırılması planlaşdırılır.Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su təminatının yaxşılaşdırılması məqsədilə genişmiqyaslı layihələr həyata keçirilir. Bu çərçivədə su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının və digər hidrotexniki qurğuların mərhələli şəkildə yenidən qurulması və tikintisinin 2026-cı ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.Bütün bu tədbirlər göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoyuluşu iqtisadi baxımdan olduqca cəlbedicidir. Burada yaradılan infrastruktur müasir texnologiyalara əsaslanmaqla yanaşı, dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün güclü iqtisadi mexanizmlər tətbiq olunur.Bu istiqamətdə qəbul edilən mühüm qərarlardan biri də Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklərdir. 9 dekabr 2022-ci il tarixli qanuna əsasən Məcəlləyə "İşğaldan azad edilmiş ərazilərdə vergitutmanın xüsusiyyətləri" adlı yeni fəsil əlavə edilmişdir. Həmin müddəalar bu ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün geniş vergi güzəştlərini əhatə edir. Belə ki, 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə rezidentlər mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azad edilmişdir. Bu isə biznes subyektlərinin vergi yükünün əhəmiyyətli dərəcədə azaldılmasına şərait yaradır. Dövlət yalnız vergi güzəştləri ilə kifayətlənməyərək, sosial sığorta sahəsində də stimullaşdırıcı tədbirlər tətbiq etmişdir. Belə ki, "Sosial sığorta haqqında" qanuna edilən dəyişikliklərə əsasən, işğaldan azad olunmuş ərazilərdə qeyri-neft sektorunda fəaliyyət göstərən subyektlər üçün xüsusi güzəştlər nəzərdə tutulmuşdur. Bu çərçivədə məcburi dövlət sosial sığorta haqlarının müəyyən hissəsi dövlət tərəfindən subsidiyalaşdırılır, bəzi hallarda isə ödənilmiş məbləğin tam həcmdə geri qaytarılması təmin olunur. Regionda sənaye potensialının inkişafı istiqamətində də mühüm addımlar atılmışdır.

İlham Əliyev tərəfindən Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonasının təməli qoyulmuşdur. Bu sənaye zonalarının yaxın perspektivdə fəaliyyətə başlaması gözlənilir. Ağdam Sənaye Parkında müxtəlif sənaye məhsullarının – o cümlədən xüsusi geyimlərin, sintetik xalçaların, polimer məhsullarının, dəmir-beton konstruksiyaların və alternativ enerji avadanlıqlarının istehsalı nəzərdə tutulur. Ümumi sahəsi 190 hektar olan parkda mindən artıq yeni iş yerinin yaradılması planlaşdırılır. Parkın əlverişli nəqliyyat-kommunikasiya qovşağında yerləşməsi onun iqtisadi əhəmiyyətini daha da artırır. Burada fəaliyyət göstərəcək rezidentlər üçün infrastruktur və kommunal xidmətlər dövlət tərəfindən təmin edilir, həmçinin vergi və gömrük güzəştləri tətbiq olunur.Cəbrayıl rayonunda yerləşən Araz Vadisi İqtisadi Zonası isə 200 hektar ərazini əhatə edir və kənd təsərrüfatı məhsullarının emalı, logistika və sənaye fəaliyyətlərinin təşkili baxımından mühüm platforma rolunu oynayacaqdır. Zonada logistika mərkəzləri, anbar kompleksləri, ticarət obyektləri və müxtəlif istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ümumilikdə, həyata keçirilən bu kompleks tədbirlər Qarabağ və Şərqi Zəngəzur bölgəsində əlverişli investisiya mühitinin formalaşmasına, kapital axınının artmasına və sahibkarlığın inkişafına zəmin yaradır. Bu isə öz növbəsində regionun qısa müddətdə sosial-iqtisadi dirçəlişinə və ölkə iqtisadiyyatına tam inteqrasiyasına xidmət edir (Quliyeva,2023). Dövlət başçısının imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamda deyildiyi kimi, Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq (Prezident.az saytı,2021).

## TƏDQİQAT HİSSƏSİ

### Tədqiqatın məqsədi.

Bu tədqiqatın əsas məqsədi Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların mahiyyətini, əsas istiqamətlərini və onların ölkənin iqtisadi inkişafına təsirini kompleks şəkildə təhlil etməkdən ibarətdir.

### Tədqiqatın önəmi.

Tədqiqatın elmi və praktiki əhəmiyyəti ondan ibarətdir ki, burada:

- iqtisadi islahatların inkişaf dinamikasına təsiri müəyyən edilir.
- qeyri-neft sektorunun roluna xüsusi diqqət yetirilir.
- sosial rifahın yüksəldilməsi mexanizmləri araşdırılır.

Bu baxımdan tədqiqat həm nəzəri, həm də praktik baxımdan aktuallıq kəsb edir və gələcək iqtisadi siyasətin formalaşdırılması üçün faydalı ola bilər.

**Tədqiqatın metodu.**

Araşdırmada müxtəlif elmi metodlardan istifadə edilmişdir. Bunlara analitik təhlil, müqayisəli yanaşma, sistemli analiz və statistik məlumatların ümumiləşdirilməsi daxildir. Bu metodlar vasitəsilə iqtisadi proseslər kompleks şəkildə qiymətləndirilmiş və nəticələr əsaslandırılmışdır.

## TƏKLİFLƏR.

Tədqiqat nəticəsində aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- Qeyri-neft sektorunda innovativ fəaliyyətlərin genişləndirilməsi.
- Rəqəmsal iqtisadiyyatın inkişafına yönəlmiş dövlət proqramlarının gücləndirilməsi.
- Sənaye parklarının fəaliyyətinin effektivliyinin artırılması və yeni parkların yaradılması.
- Kiçik və orta sahibkarlığın maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi.
- Təhsil sistemində əmək bazarının tələblərinə uyğun kadr hazırlığının gücləndirilməsi.
- Regionlarda infrastruktur layihələrinin davam etdirilməsi.

## MÜZAKİRƏ

Aparılan təhlillər göstərir ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar mərhələli və ardıcıl xarakter daşıyaraq ölkənin iqtisadi inkişafında mühüm rol oynamışdır. Xüsusilə ilkin mərhələdə makroiqtisadi sabitliyin təmin olunması, institusional islahatların həyata keçirilməsi və xarici investisiyaların cəlbi iqtisadi artımın əsasını təşkil etmişdir. Sonrakı mərhələdə isə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və innovativ iqtisadiyyatın formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ölkənin xarici iqtisadi şoklara qarşı dayanıqlığını artırmışdır. Post-münaqişə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işləri isə Azərbaycanın yeni inkişaf mərhələsinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu ərazilərdə yaradılan müasir infrastruktur, tətbiq edilən vergi və investisiya təşviqi mexanizmləri regionun qısa müddətdə ölkə iqtisadiyyatına inteqrasiyasını təmin etməyə yönəlmişdir.Beləliklə, aparılan islahatlar Azərbaycanın iqtisadi inkişaf modelinin dayanıqlılığını və effektivliyini təsdiq edir və ölkənin gələcək inkişaf perspektivləri üçün möhkəm zəmin yaradır.

## NƏTİCƏ

Beləliklə, aparılan təhlillər göstərir ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar ardıcıl, məqsədyönlü və uzunmüddətli strateji yanaşmaya əsaslanır. Müstəqilliyin ilk illərində yaşanan iqtisadi tənəzzül mərhələsindən sonra ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi inkişaf strategiyası ölkədə makroiqtisadi sabitliyin bərpasına, bazar iqtisadiyyatının formalaşmasına və beynəlxalq iqtisadi sistemə uğurlu inteqrasiyaya zəmin yaratmışdır. Bu mərhələdə həyata keçirilən struktur islahatlar, neft strategiyası və institusional dəyişikliklər Azərbaycanın gələcək inkişafının möhkəm təməlini təşkil etmişdir.Sonrakı dövrdə isə İlham Əliyev tərəfindən bu siyasətin davam etdirilməsi və yeni çağırışlara uyğun şəkildə təkmilləşdirilməsi nəticəsində ölkə iqtisadiyyatı keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın stimullaşdırılması və innovativ texnologiyaların tətbiqi nəticəsində dayanıqlı və inklüziv iqtisadi artım təmin olunmuşdur.Eyni zamanda, iri infrastruktur layihələrinin həyata keçirilməsi, sənaye parklarının yaradılması və regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramlarının icrası ölkədə balanslı inkişafın təmin olunmasına mühüm töhfə vermişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri isə Azərbaycanın iqtisadi potensialını daha da artırmaqla yanaşı, yeni investisiya imkanları formalaşdırır və regionun milli iqtisadiyyata inteqrasiyasını sürətləndirir.Nəticə etibarilə, həyata keçirilən kompleks islahatlar Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirmiş, sosial rifahın yüksəldilməsinə, yoxsulluğun azaldılmasına və insan kapitalının inkişafına mühüm təsir göstərmişdir. Bu proseslər ölkənin gələcəkdə də davamlı inkişafını təmin edəcək, onu regionda və qlobal miqyasda rəqabətqabiliyyətli və güclü dövlət kimi möhkəmləndirəcəkdir.

**MÖVZUNUN AKTUALLIĞI**: Müasir qlobal iqtisadi şəraitdə dövlətlərin dayanıqlı inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və sosial rifahın yüksəldilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Xüsusilə enerji resurslarından asılı olan ölkələr üçün qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın diversifikasiyası strateji prioritet kimi çıxış edir. Bu baxımdan Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar həm milli, həm də beynəlxalq kontekstdə mühüm əhəmiyyət daşıyır. Müstəqillikdən sonra ölkənin keçdiyi mürəkkəb iqtisadi transformasiya mərhələsi, bazar iqtisadiyyatına keçid prosesi və qlobal iqtisadi sistemə inteqrasiya istiqamətində atılan addımlar bu mövzunun aktuallığını daha da artırır.

**TƏDQİQATIN ELMİ YENİLİYİ:** Tədqiqatın elmi yeniliyi Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların kompleks və sistemli şəkildə, tarixi mərhələlər üzrə müqayisəli təhlilində ifadə olunur. Araşdırmada iqtisadi inkişafın iki əsas mərhələsi – tənəzzül və sabit inkişaf dövrləri elmi əsaslarla ümumiləşdirilmiş, bu mərhələlərdə tətbiq edilən iqtisadi siyasətin xüsusiyyətləri yeni yanaşma ilə izah edilmişdir. Bundan əlavə, tədqiqatda "Azərbaycan modeli"nin formalaşması, onun institusional və struktur xüsusiyyətləri müasir iqtisadi nəzəriyyələr kontekstində təhlil edilmiş, xüsusilə qeyri-neft sektorunun inkişafı, sənaye parklarının yaradılması və innovativ iqtisadi mexanizmlərin tətbiqinin iqtisadi artıma təsiri elmi əsaslarla təqdim olunmuşdur.

**TƏDQİQATIN PRAKTİK ƏHƏMİYYƏTİ:** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr və irəli sürülən təkliflər Azərbaycanda sosial-iqtisadi siyasətin daha da təkmilləşdirilməsi üçün istifadə oluna bilər. Araşdırma nəticələri dövlət idarəetmə orqanları,iqtisadi siyasəti formalaşdıran qurumlar və sahibkarlıq subyektləri üçün praktik əhəmiyyət daşıyır. Xüsusilə qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, sənaye parklarının effektiv fəaliyyətinin təmin olunması və regionların sosial-iqtisadi inkişafı istiqamətində qəbul edilən qərarların elmi əsaslandırılmasında bu tədqiqat mühüm rol oynaya bilər. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə tətbiq edilən iqtisadi

mexanizmlərin təhlili həmin bölgələrdə iqtisadi fəallığın artırılması və sahibkarlığın inkişafı üçün praktik tövsiyələrin hazırlanmasına imkan yaradır. Eyni zamanda, tədqiqat ali təhsil müəssisələrində tədris və elmi araşdırmalar üçün metodoloji mənbə kimi istifadə edilə bilər.

**İQTİSADİ SƏMƏRƏLİLİK:** Aparılan tədqiqat göstərir ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsində mühüm rol oynamışdır. İslahatlar nəticəsində iqtisadi resursların daha optimal bölüşdürülməsi təmin edilmiş, dövlət idarəetməsində çeviklik və effektivlik artmışdır. Xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirlər iqtisadiyyatın şaxələndirilməsinə şərait yaratmış, uzunmüddətli iqtisadi dayanıqlılığın təmin olunmasına xidmət etmişdir.Tədqiqat çərçivəsində müəyyən edilmişdir ki, sənaye parklarının yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və innovativ iqtisadi mexanizmlərin tətbiqi istehsalın səmərəliliyini artırmış, yeni iş yerlərinin açılmasına və sahibkarlıq fəaliyyətinin genişlənməsinə səbəb olmuşdur. Bu isə öz növbəsində əhalinin gəlirlərinin artmasına və sosial rifahın yüksəlməsinə müsbət təsir göstərmişdir.Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramları iqtisadi fəallığın ərazi baxımından daha balanslı paylanmasına imkan vermiş, infrastruktur təminatının yaxşılaşdırılması vasitəsilə ümumi iqtisadi səmərəliliyi yüksəltmişdir. İşğaldan azad olunmuş ərazilərdə tətbiq edilən yeni iqtisadi yanaşmalar isə resurslardan daha səmərəli istifadə edilməsinə və həmin bölgələrin iqtisadi potensialının reallaşdırılmasına zəmin yaratmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Prezidenti. (2021). *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər.* https://president.az/az/articles/view/50474
2. Bağırov, E. (2022). Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar məqsədyönlü və strateji xarakter daşıyır. *Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC).* https://azertag.az/xeber/azerbaycanda_heyata_kechirilen_sosial_iqtisadi_islahatlar_meqsedyonlu_ve_strateji_xarakter_dasiyir-2171174
3. Bayramov, V. (2017). Azərbaycanda iqtisadi islahatlar strategiyasının inamla həyata keçirilməsi sürətli inkişafa zəmin yaradır. *Xalq qəzeti.* https://old.xalqqazeti.com/az/news/economy/92186
4. Həsənov, M. (2014). Qloballaşan dünyada Azərbaycanın iqtisadiyyatı və siyasəti. *Xalq qəzeti.* https://old.xalqqazeti.com/az/news/economy/41038
5. Kəngərli, R. (2017). Neft strategiyasının reallaşdırılmasına aparan uğurlu yol: neft diplomatiyası. *Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC).* https://azertag.az/xeber/ulu_onder_heyder_eliyevin_ugurlu_neft_strategiyasi_azerbaycani_yeni_inkisaf_merhelesine_yukseldib-1095174
6. Kərimov, İ. (2023). Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar. *İki sahil.* https://ikisahil.az/post/412371-heyder-eliyev-ve-azerbaycanda-iqtisadi-islahatlar
7. Quliyeva, G. (2023). Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq mühiti. *ResearchGate.* https://www.researchgate.net/publication/373925507_Qarabag_v_Srqi_Zngzurda_sahibkarliq_muhiti
8. Sezer, Ə. N. (2017). Heydər Əliyev və iqtisadi islahatlar. *Həftə.az.* https://hafta.az/heyder-eliyev-ve-iqtisadi-islahatlar-198258-xeber.html

9. Yusifov, F. (2023). Qarabağ zəfərinin iqtisadi təməlləri. *Xalq qəzeti.* https://www.xalqqazeti.az/az/iqtisadiyyat/147760-qarabag-zeferinin-iqtisadi-temelleri
10. Yusifzadə, X. (2023). Heydər Əliyevin neft strategiyası. *Prezident Kitabxanası.* https://files.preslib.az/projects/heydaraliyev/articles/he1035.pdf